# Rəqəmsal məkanda hüquqların haqqında öyrən

Rəqəmsal məkanda uşaq hüquqlarına əməl etmək, mühafizə etmək və həyata keçirmək barədə Avropa Şurasının Rəhbər Prinsipləri

**Uşaqlar və yaşı 18-dən aşağı olan yeniyetmələr üçün nəzərdə tutulur**



www.coe.int/children

Uşaqlarla birlikdə uşaqlar üçün Avropa yaratmaq

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Bu prinsipləri kim və nə üçün hazırlayıb?



**Avropa Şurası Avropada sülh və insan hüquqları uğrunda çalışan 47 ölkəni birləşdirən bir qrupdur:**

O, Avropa ölkələrinə uşaqların hüquqlarını – **sənin hüquqlarını mühafizə etməyə kömək edir**.

Buraya sənin **rəqəmsal məkanda** hüquqların da daxildir.



**Avropa Şurası istəyir ki, böyüklər və uşaqlar başa düşsünlər ki, uşaqların rəqəmsal məkanda hüquqlarından istifadə etməsi üçün nə etmək lazımdır.**

**Uşaq hüquqları** uşaqların xoşbəxt həyat sürmələrinə kömək etmək üçün hökumətlərin verdiyi vədlərdir.

**Rəqəmsal məkan** dedikdə uşaqların kompyuterdən və internetdən istifadə etdikləri bütün vasitələr nəzərdə tutulur: smartfonlar (ağıllı telefon) və planşetlər, kompyuter oyunları və sosial media.

# Uşaqların hüquqlarını mühafizə etmək üçün yadda saxlanılmalı olan ən vacib qaydalardan bəziləri hansılardır?

**Daima mühüm olan 5 qayda vardır və sənin və başqa uşaqların adından qərar verilərkən aşağıdakılara əməl edilməlidir:**



1. Qərar verilərkən və ya tədbir görülərkən nəzərə alınası ən mühüm hissələrdən biri **uşaqların ən yaxşı mənafeyidir.**
2. **Uşaqlar doğulduğu gündən 18 yaşa qədər dəyişmə prosesində olur.** Yeniyetmələrin və körpə uşaqların bacarıq və ehtiyacları fərqlidir.
3. **Əsaslı səbəb olmadan uşaqlara fərqli münasibət göstərilməməlidir.**
4. **Uşaqların fikirləri dinlənilməli və ciddi qəbul edilməlidir.**
5. **Hökumətlər** uşaqların hüquqlarını qorumaq üçün bu barədə təşviqat işi aparmalı, dəstək göstərməli və başqaları ilə (məsələn, müəssisələr, müəllimlər, valideynlər və uşaqlar) birgə işləməlidirlər.

**‘Uşaqların ən yaxşı mənafeyi’** o deməkdir ki, qərar qəbul edildikdə, birinci yerdə uşağın rifahı dursun.

Uşaqlara dəstək göstərməli olan **hökumətlər** dedikdə milli, regional və yerli səviyyədə hökumət qurumları və onlarla əlaqəli təşkilatlar nəzərdə tutulur.

# Sənin hansı hüquqların qorunmalıdır və niyə?

## Bütün uşaqların rəqəmsal məkandan istifadə imkanı olmalıdır

Burada istifadə:

- Aşağı qiymətə olmalı (mümkünsə, ictimai məkanlarda pulsuz olmalıdır).
- Həmçinin xüsusi qayğıya ehtiyacı olan, kənd yerlərində yaşayan və miqrant olan hər biriniz üçün istifadə imkanı yaradılmalıdır.








## Sənin məlumat əldə etmək hüququn

- Hökumətlər təmin etməlidirlər ki, müvafiq məlumatları əldə etmək sənin üçün asan olsun.
- Sən rəqəmsal məkanda başqalarına hörmət etməyi öyrənməlisən (məsələn, bullinq (aqressiv davranış) və zorakılığa sövq etməməlisən).
- Müəssisələr istifadə şərtləri haqqında məlumatı elə verməlidirlər ki, sən onları tapa və anlaya biləsən.

## Sənin qərar qəbulunda iştirak etmək hüququn

- Məktəblər, hökumətlər, müəssisələr və beynəlxalq qurumlar səndən fikirlərini soruşmalı və sənin fikirlərini ciddi qəbul etməlidirlər.





## Sənin onlayn qruplar yaratmaq və onlara qoşulmaq hüququn

- Sən internetdə olduğun zaman hökümət və ya başqaları tərəfindən izlənilməməlisən, qanunla icazə verilən hallardan başqa.

## Sənin oynamaq hüququn

- Hökümətlər və müəssisələr sənin oynamağına, yaradıcı fəaliyyətlə məşğul olmağına, problemləri həll etməyinə və digər uşaqlar ilə birlikdə işləməyinə dəstək olmalıdırlar.

## Sənin şəxsi həyatının toxunulmazlığı və şəxsi məlumatlarının mühafizə hüququn

- Hər bir kəs sənin şəxsi həyatının toxunulmazlığı hüququnun olması barədə bilməlidir.
- Sən öz şəxsi məlumatlarını onlayn olaraq necə məxfi saxlamağı öyrənməlisən.
- Sənə aid şəxsi məlumatlar yalnız sənin icazən ilə (və ya sən çox kiçiksənsə valideynlərin icazəsi ilə) və qanun yol verdiyi hallarda istifadə edilməlidir.
- Sən bilməlisən ki, sənin şəxsi məlumatların necə istifadə olunur və həmin məlumatları necə silməyi və səhvlərə necə düzəliş etməyi bacarmalısan.
- Sənin haqqında məlumat toplamaq üçün oyuncaqlarda və ya paltarlarda gizlədilmiş ağıllı cihazlardan istifadə edilməməlidir.



**Şəxsi məlumatlar** dedikdə adın, yaşın, harada yaşadığın və hazırda yerləşdiyin yer nəzərdə tutulur.

## Sənin təhsil hüququn

- Məktəblərdə sənin ehtiyacların üçün zəruri olan rəqəmsal texnologiya olmalıdır.
- Sən özünə lazım olan bacarıqları öyrənməlisən. Bu, xüsusilə sən qız usağı, aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan uşaq olduğun halda vacibdir.

## Sənin zərərli təsirlərdən mühafizə olunmaq hüququn

- Yaş qrupları üçün nəzarət yoxlamaları mövcuddur.
- Sənə və sənin valideynlərinə bullinq (aqqresiv davranış), zərərli təsirə malik məlumat və tanış olmayan adamın təhlükəsi barədə bilgi verilir.
- Sən zərərli təsirə malik məlumat və davranış barədə asanlıqla məlumat verə bilməlisən.
- Uşaqların cinsi istismarı əks etdirən onlayn materiallar qadağandır.

**Zərərli təsirlərə aşağıdakılar daxildir:** bullinq (aqressiv davranış); uşaqları cinayət törətməyə cəlb etmək; cinsi ayrıseçkiliyə, irqçliyə, intihara və ya özünə xəsarət vurmağa sövq etmək; qumar oyunları; cinsi istismar; və kompyuterlərdən, planşetlərdən və ya smartfonlardan sağlamlığa zərər verəcək dərəcədə istifadə edilməsi.

# Rəqəmsal məkanda sənin öz hüquqlarından istifadə etməyini təmin etmək üçün hökumətlər və digərləri nə etməlidirlər?

- Rəqəmsal məkanda sənin hüquqlarını müdafiə edən qanun və siyasət hazırlamaq.
- Hər bir kəsin həmrəy çalışmasını təmin etmək.
- Sənin rəqəmsal məkanda öz hüquqlarından istifadəni təmin etməkdən ötrü səninlə işləyən bütün şəxsləri, həmin hüquqları anlaması üçün məlumatlandırmaq və həyata keçməsi üçün bütün imkanlardan istifadə etməyə sövq etmək.
- Sizin hamınızın rəqəmsal məkandan istifadə etmənizi təmin etmək.
- Rəqəmsal məkandan sənin necə faydalana biləcəyini və zərərli təsirlərdən qorunmanı anlamaq üçün araşdırmalar aparmaq.
- **Şikayət və müdafiə vasitələri**. Sənin və valideynlərinin hüquqlarına hörmət edilmədiyi hallarda, istifadəsi asan şəkildə şikayət edə bilmələrini hökumətlər təmin etməlidir.




**Müdafiə vasitələrinə aşağıdakılar daxildir:** üzr istəmək, zərərli təsirə malik məzmunun çıxarılıb götürülməsi, iddialar qaldırmaq, səhv olan məlumatların düzəldilməsi.



© Avropa Şurası, May 2020

Tərtibat və illüstrasiya: Andy Matthew,

Port Creative, Edinburq (Böyük Britaniya)

Bu sənədin tam və ya bir hissəsinin çoxaldılması və ya tərcüməsi ilə bağlı təkliflər Kommunikasiya Direktorluğuna göndərilməlidir (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int).

Bu nəşrdə Avropa Şurasının Nazirlər Komitəsinin Rec(2018) 7 saylı üzv dövlətlərə ünvalanan tövsiyəsinin, uşaq dostu versiyası üzrə rəqəmsal mühitdə uşaq hüquqlarının müdafiəsinə dair təlimatlar təqdim olunub.

Bu nəşr Zorakılığa Son Fondunun maliyyə dəstəyi ilə Avropa Şurasının “Uşaqlara qarşı onlayn cinsi istismara və cinsi zorakılığa son verilməsi” layihəsi tərəfindən tərcümə olunub. @Europe (EndOCSEA@Europe).



**Təlimatlarla tanış ol və rəqəmsal mühitdə öz hüquqlarını bil**

Uşaq hüquqlarının müdafiəsi sahəsində Avropa Şurasının fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün: **www.coe.int/children**

Biz Avropa Şurasının təlimatının uşaq dostu versiyasınn hazırlanmasında Böyük Britaniyanın Queen’s Universitetinin professoru Lauraya və Dr. Mişel Templetona, həmçinin bu sənədin ərsəyə gəlməsində öz töhfələrini verən Bremore Educate Together Secondary Məktəbinin şagirdlərinə: Shemsedine, Margarita, Ali, Amelia, Liam, Bright, Neilas and Charlie öz təşəkkürümüzü bildirirk.

QUEEN’S UNIVERSITY BELFAST

CENTRE FOR CHILDREN’S RIGHTS

AZE

Avropa Şurası 47 üzv ölkədən ibarət olan və Fransanın Strasburq şəhərində yerləşən bir Avropa təşkilatıdır. Avropa Şurasına bütün üzv dövlətləri insan və uşaq hüquqlarının müdafiəsi, onların hər növ zorakılıqdan qorunması, uşaqların bütün imkanlarının inkişaf etdirilməsini öz öhtələrinə götürürlər.

COUNCIL OF EUROPE

CONSEIL DE L’EUROPE